Azərbaycan Respublikasının
Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin
İnkişafına
Dövlət Dəstəyi Fondu

**5-ci istiqamət: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Laçının şöhrətli tarix və mədəniyyət abidələri bir daha erməni saxtakarlıq maşınına yem olmayacaq...

**"Laçın rayonu ölkəmizin ən böyük rayonlarından biridir, ərazisi 1800 kvadratkilometrdir. Laçın rayonunun zəngin təbiəti, tarixi abidələri, yeraltı sərvətləri bizim milli sərvətimizdir…". Bu fikirləri Laçının işğaldan azad olunması münasibətilə xalqa müraciətində Prezident İlham Əliyev bildirib.**

Məlum olduğu kimi, 18 may 1992-ci ildə Ermənistan Respublikası silahlı qüvvələri tərəfindən işğal edilən Laçın rayonu Azərbaycan Respublikası, Rusiya Federasiyası prezidentləri və Ermənistan Respublikası hökumət başçısının imzaladığı üçtərəfli bəyanata əsasən, 1 dekabr 2020-ci ildən etibarən, 28 il sonra yenidən Azərbaycan Respublikasına qaytarılıb.

### Tarixi keçmişi zəngin olan Laçın…

Tarixçilərin verdikləri bilgiyə görə, Laçın tarixi keçmişi zəngin olan bir ərazidir. Laçın abidələri hələ eramızdan əvvəl I-II minilliyə aid edilən Xocavənd rayonundakı Azıx və Cəbrayıl rayonundakı Tağlar mağaraları ilə müqayisə edilə biləcək qədər dəyərli və nadir abidələrdəndir. XII əsrin sonu XIII əsrin əvvəllərində Qarabağın dağlıq hissəsində Alban Xaçın Knyazlığı yarandı. Bu knyazlıq eləcə də indiki Laçın bölgəsini əhatə edirdi. Ona görə də Qarabağın digər bölgələrində olduğu kimi, bu ərazilərdə də Xaçın adı ilə bağlı yeni adlar, toponimlər əmələ gəlməyə başladı. Tarixçilər buna misal olaraq indiki Laçın ərazisindəki Xaçınyalı kəndini, Bozlu kənd ərazisindəki Xaçın yalı, Xaçın daşı adları ilə adlanan yer adlarını göstərirlər.

Sonralar Xaçın Knyazlığının ərazisində, Xaçın da daxil olmaqla, Qarabağ-alban məlikləri - Xaçın, Vərəndə, Dizaq, Gülüstan (Talış) məlikliyi ilə yanaşı, Çiləbörd məlikliyi də yarandı.

1828-ci il Rusiya-İran müharibələrindən sonra bağlanan Türkmənçay müqaviləsinə əsasən, bölgə Şimali Azərbaycanın tərkibində Rusiyaya qatılıb. Rusiyanın himayəsi altında Cənubi Qafqaza Osmanlı dövlətindən və İrandan ermənilərin kütləvi şəkildə köçürülüb məskunlaşdırılmasına başlandı. Ancaq Laçın bölgəsinə ermənilərin məskunlaşdırılması mümkün olmayıb.

### "Laçın rayonunun tarixi abidələri ermənilər tərəfindən məhv edilib"

28 il düşmən tapdağında olan Laçın rayonunda Ermənistan hökuməti xarici ölkələrdən, xüsusən də Suriya və Livandan erməniləri köçürərək, qanunsuz məskunlaşdırma siyasəti həyata keçirib. Ermənilər Laçında yaşadıqları 28 il müddətində burada olan bütün qədim tarixi abidələrimizə qarşı vandalizm aktları törədib, maddi-mədəni irsimizin bir hissəsini məhv edib, bir qismini isə saxtalaşdıraraq erməniləşdiriblər. Erməniləşdirməyə məruz qalan abidələrimiz isə əsasən Qafqaz Albaniyası dövrünə aid olan xristian abidələrimiz olub.

AMEA Qafqazşünaslıq İnstitutunun Qafqaz siyasəti şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Elnur Kəlbizadənin sözlərinə görə, ermənilər Laçında abidələrimizə qarşı çox böyük cinayət aktları törədiblər. Ermənilərin Laçında doqquzuncu əsrə aid abidəyə saxta "tarixi lövhələr" yerləşdirdiklərini qeyd edən alimin sözlərinə görə, düşmən tərəfindən Alban xristian memarlığının ən möhtəşəm incilərindən olan Ağoğlan məbədinin üzərində Alban dövrünə aid ornamentlər silinib, abidənin üzərində erməni dilində 26 ədəd saxta "tarixi lövhə" yerləşdirilib.

Onun sözlərinə görə, kompleksin ərazisində Ermənistanda istehsal olunan və qədimlik görkəmi verilən, məbədə və əraziyə heç bir aidiyyəti olmayan xaç daşları basdırılıb.

E.Kəlbizadə bildirib ki, Ağoğlan məbədinin erməniləşdirilməsi prosesinə 1992-ci ildə işğaldan dərhal sonra başlanıb: "Laçın rayonunun tarixi abidələri ermənilər tərəfindən məhv edilib. Rayonun ərazisindəki Məlik Əjdər türbəsi, Sultan Baba piri və digər ziyarətgahlar baxımsız vəziyyətdə qalıb, abidələr dağıdılıb. İşğaldan əvvəl rayon ərazisində geniş yayılmış daş heykəlləri, xüsusən qoç və at fiqurlarının bir qismi ermənilər tərəfindən oğurlanıb, bir qismi isə məhv edilib. Bununla yanaşı, 1989-cu ildə ümumittifaq muzeylərə baxış müsabiqəsinin qalibi olmuş Laçın Dövlət Tarix-Diyarşünaslıq Muzeyinin binası və 10 mindən artıq eksponatı məhv edilib və aparılması mümkün olanlar isə daşınıb".

### Ağoğlan qəsri, Dəmrovlu Pir Məbədi, XII əsrin Malik-Əjdər türbəsi, Uşaq qalası, Kar günbəz...

Mütəxəssisin verdiyi bilgiyə görə, ümumilikdə, işğala qədərki dövrdə Laçın rayonunda 54 dünya və 200-dən çox yerli əhəmiyyətli qədim tarixi abidə olub ki, onlara qarşı ermənilər tərəfindən vandalizm aktları törədilib: "Rayon ərazisindəki IX əsrə aid Ağoğlan qəsri, XI əsrə aid Dəmrovlu Pir Məbədi, XII əsrin abidəsi olan Malik-Əjdər türbəsi, XV əsrin yadigarı Uşaq qalası, XVII əsrin nişanələrini saxlayan Kar günbəz, orta əsrlərin yadigarları olan birtağlı və ikitağlı körpülər, su dəyirmanları və sair kimi tarixi abidələr öz memarlıq üslubu ilə qədim dövrlərdən ərazidə türk tayfalarının məskən saldığını təsdiqləyir.

Qədim türk yurdu Laçında məskunlaşmanın tarixi ən geci eramızdan əvvəl II-I minillikdən başlayır. Laçın rayonunun Mirik kəndi ərazisindəki Qaranlıq kaha, Bayqara mağaraları, Hoçaz kəndindəki mağara-məbəd bu qədim tarixin nişanələridir. Bununla yanaşı, Qobustan və Gəmiqayadan sonra Laçın ərazisində qədim qaya təsvirləri, daş üzərində süjet xarakterli oymalar aşkara çıxarılıb. Bütün bunlar isə, təbii ki, protoazərbaycanlıların qədim mədəni inkişafının müxtəlif bölgələrimizdə meydana çıxan ortaq təzahürləridir".

### Laçının 12 qoç, 28 at fiqurunun başına düşmən hansı oyunları açıb?

Laçın dağlarında qədim və möhtəşəm mədəniyyət abidələri ilə təbiətin bir-birini sanki tamamladığı məlumdur. Cicimli, Güləbird, Soltanlar, Zeyvə, Malıbəy, Yənqıça, Bülövlük, Araflı, Əliqululu, Malxələf, Hüsülü, Kosalar, Seyidlər, Pircahan, Kürdhacı və digər kəndlərdəki tarixi abidələr -12 qoç, 28 at fiquru, 36 müxtəlif süjetli yazı və rəsm, sal daş, müxtəlif dövrlərdə ərəb əlifbası ilə yazılan, bir-birinə bənzəməyən sənət rəmzləri həkk edilən qəbirüstü daşlar, məşhur Sarı Aşığın sevgilisi Yaxşının məzarı bu torpaqlarda min illər boyu yaşayan əcdadlarımızın bizə yadigar qoyduğu nişanələrdən olub.

Rayonun Cicimli kəndindəki məbəd, qədim anbar, Güləbirddə Sarı Aşığın qəbirüstü ziyarətgahı əsrlərin canlı salnaməsi idi. Tarix-Diyarşünaslıq Muzeyində toplanmış nadir eksponatlar Laçının zəngin tarixi keçmişi haqqında dolğun təsəvvür yaradırdı. Təəssüf ki, Laçının işğalı nəticəsində bu tarixi incilər də təcavüzün qurbanına çevrildi və ermənilər tərəfindən tarixin yadigarları, milli mədəniyyət abidələrimiz olan qala və məbədlər saxtakarcasına erməniləşdirildi.

### Erməni təcavüzünə məruz qalan qala və türbələrimiz...

Tarixçilər qeyd edirlər ki, işğal dövründə təcavüzə məruz qalan abidələrdən olan Ağoğlan abidəsi ermənilər tərəfindən "erməni kilsəsi" kimi qələmə verilib.

Qeyd etdiyimiz kimi, Laçın rayonu ərazisindəki memarlıq abidələrinin əksəriyyəti Qafqaz Albaniyası dövrünə aiddir. Laçın rayonunun ərazisində bir sıra adların Xaçınla bağlı olduğunu qeyd etmişik. Bozlu kəndi ərazisində olan "Xaçın daşı" da ermənilər "öz abidələri" olaraq təbliğ ediblər.

Bundan başqa, Alı Xəlifə ocağı Laçının Böyük Seyidlər kəndində yerləşirdi. Qarabağın ən ağır seyidlərindən olan Alı Xəlifə elə həmin kənddə dünyasını dəyişib ki, məzarı üstündə sərdabə tikilib. Ən ulu səcdəgahlardan biri də məhz Alı Xəlifənin ocağı idi. Laçının müqəddəs yerlərindən biri də Böyük Seyidlər kəndindəki Seyid Hüseyn ziyarətgahı olub. Bu kənddəki ziyarətgahların sırasına daxil olanlardan biri də "Güllü qəbir" piri idi ki, orada Hacı İbrahim ağa dəfn edilib. Məlumatlara əsasən, o, Qarabağ ellərinin ağır övliyalarından sayılan Xudavəndə Xəlifənin nəvəsi idi.

Cicimlidə məbəd, qədim anbar, Güləbirddəki Sarı Aşığın qəbirüstü ziyarətgahı, Zeyvədə Şeyx Əhməd, 1-ci və 2-ci Soltanbaba, Minkənddə XV əsr məbədi, Qarıqışlaqda Dəmirovlu pir-məbədi, Bülövlük kəndinin şimalındakı qədim Kişpəyədə alban məbədi, Piçənisdə alban məbədi, Xan qəbiristanlığındakı Zəngəzurun sultanları Qara Murtuza bəyin, 1-ci Alməmmədin, 2-ci Alməmmədin hasardakı türbələri, Şeyx Şamillə dostluq etmiş, ona köməklik göstərmiş Cəbrayıl bəyin türbəsi, Araflıda Murtuza Sultanın anasının türbəsi, Pircahan çayında Məşədi Mehralının arxitekturalı və Minkənd körpüləri kimi tarixin nadir inciləri erməni vandalları tərəfindən darmadağın edilib. Memarlıq abidələrindən Hoçaz kəndindəki mağara-məbəd (V əsr), Cicimlidəki Məlik Əjdər türbəsi (XIV əsr), adsız türbə (XVII-XVIII əsrlər), Şeyx Əhməd türbəsi (XIX əsr), Qarıqışlaq kəndindəki məscid (1718), Hüsülü kəndində Həmzə Sultan sarayı (1761), Həkəri çayı üzərindəki körpü (XVIII əsr), Ağoğlan çayı üzərindəki məbəd (XIX əsr), Güləbirddəki türbə də erməni təcavüzünə məruz qalıb.

Artıq Laçın işğaldan azad edilib və o abidələrimizin restavrasiyası, bərpası işi həyata keçiriləcək. Ermənilərin Laçından oğurlayıb apardıqları, qanunuz yollarla xarici ölkə muzeylərinə satdıqları eksponatlarımızın da qaytarılmasına nail olacağıq.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**